# Görkəmli şəxsiyyətlər
# Məmməd Səid Ordubadi haqqında

Məmməd Səid Ordubadinin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Məmməd Səid Ordubadinin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur.

***

Məmməd Səid Ordubadi əsərlərini alimlər təhlil edə bilərlər. Şübhəsiz ki, nə qədər təhlil etsələr, o qədər dərinliyə gedəcəklər. Bəlkə də böyük dərya kimi heç onun hamısını əhatə edə bilməyəcəklər. Ancaq bununla yanaşı, bizim hamımızın borcu, xüsusən müəllimlərin, məktəblərin, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Məmməd Səid Ordubadinin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə

**Heydər Əliyev,**
**Ümummilli lider**

Məmməd Səid Ordubadinin zəngin yaradıcılığı millilik və bəşəriliyi, yüksək vətəndaşlıq qayəsini, qabaqcıl ideyaları özündə birləşdirən azərbaycançılıq məktəbidir. Bu məktəbin tariximizdə və ədəbiyyatımızda oynadığı rol yüksək qiymətə layiqdir.

**NMR-sı Ali Məclisinin sədri,**
**Vasif Talıbov**

Məmməd Səid Ordubadinin romanları xalqımızın qəhrəmanlıq keçmişinin, mübarizə və müsibətlər tarixinin canlı təcəssümüdür. Onun hər bir romanı əngin tarixi lövhədir. Bu əngin lövhədə hadisələrin zamanı və məkanı, personajların xarakteri ustad sənətkara məxsus fırça ilə ən zərif cizgilərlə, ən ufaq təfərrüatlarla rəsm edilmişdir. Ordubadinin romanlarında əsas obraz xalqdır, xalqın qəhrəmanlığıdır.

**Səməd Vurğun,**
**Xalq şairi**

M.S.Ordubadi öz tarixi romanlarını qələmə aldığı vaxt Azərbaycan ədəbiyyatında tarixi roman janrı yaranmamışdı və izlənməli bir nümunə yox idi.

**Mir Cəlal,**
**ədəbiyyatşünas, professor**

M.S.Ordubadinin zəngin bədii yaradıcılığı Azərbaycan ədəbiyyatında tarixi roman janrının inkişafı sahəsində olduqca mühüm bir təşəbbüsdür.

**Mehdi Hüseyn,**
**Xalq yazıçısı**

M.S.Ordubadinin tarixi romanları olduqca müasir və aktualdır.Azadlığı qazanmış və onu müdafiə etməyi bacaran xoşbəxt və qəhrəman xalqın yazıçılarındandır.

**Filologiya elmləri doktoru, professor**
**Məmməd Arif Dadaşzadə**

M.S.Ordubadi bizim ədəbiyyatımızın, mətbuatımızın, incəsənətimizin, ümumiy-yətlə, mənəvi mədəniyyətimizin inkişafında xüsusi mövqeyi olan yazıçılarımızdan biridir. Bir şair, dramaturq, jurnalist, memuarist, siyasi publisist, musiqi mətnləri müəllifi, tərcüməçi, xüsusən qüdrətli nasir-romançı kimi, həm də bir alimşərqşünas və azərbaycanşünas kimi Ordubadi çox zəngin bir irs qoyub getmişdir.

**Məmmədcəfər Cəfərov,**
**ədəbiyyatşünas alim**

M.S.Ordubadi Azərbaycan sovet ədəbiyyatının görkəmli, qocaman nümayəndəsi kimi şeir, nəsr və publisistika sahəsində diqqətəlayiq fəaliyyət göstərmişdir. Müasir Azərbaycan ədəbiyyatının tərəqqisində bu ədibin xidməti böyükdür.

**Əli Sultanlı,**
**professor**

Ordubadinin ədəbi irsi ilə tanış olduqda adam heyrətdən özünü saxlaya bilmir. İnsan nə qədər yazıb-yaradarmış!

***

Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatı və ictimai fikir xəzinəsini yaradanların ölməz ailəsinə mənsub olan simalardan biridir.

**Abbas Zamanov,**
**filologiya elmləri doktoru, professor,**

Məmməd Səid Ordubadi ensiklopedik bilik sahibi idi.

***

Geniş dünyagörüşə malik olan ədib dövrün ciddi mənəvi, sosial problemlərinə öz münasibətini bildirmiş, kəskin publisistikası ilə öz sözünü demişdir... M.T.Sidqi, Sabir, Vaqif, Vidadi, Füzuli, Nizami, Xətib Təbrizi, Məhsəti... və b. söz sənətkarları barədə yazdığı məqalələr çoxəsrlik ədəbiyyat tariximizin öyrənilməsi işində qiymətli bir mənbədir.

**Filologiya elmləri doktoru, professor,**
**Yavuz Axundlu**

Ədibin əsərləri ona görə qiymətlidir ki, doğma vətənimizi, onun qədim və zəngin tarixini, Azadlıq sevən mərd qəhrəmanlarını, söz, sənət, Fikir, Qılınc bahadırlarını təsvir və tərənnüm edir...

**Ədəbiyyatşünas, tənqidçi**
**Fəridə Vəzirova**

M.S.Ordubadi Azərbaycan opera sənətinin inkişafı işində məhsuldar çalışan istedadlı bir yazıçı kimi Azərbaycan musiqi teatr tarixində şərəfli yer tutan görkəmli sənətkardır.

**Əfrasiyab Bədəlbəyli,**
**bəstəkar**

Fikrimcə, Ordubadi Azərbaycan ədəbiyyatının Lev Tolstoyudur. O, ədəbiyyatımızda ilk tarixi romanın müəllifidir. Əsərlərinin səkkizcildliyi çap olunub, lakin arxivlərdə olanları da çap etsək, oncildliyi yaranar. Onun “Qanlı sənələr” əsərini biz tapmışıq. İlk dəfə 1911-ci ildə çap olunan bu kitab qadağan olunmuşdu. Arxiv açılandan sonra tapdıq və xarici dillərə tərcümə olundu. “Bu şəhərdə” adlı xatirə əsəri isə çap olunmayıb.

***

Yazıçının 150 illiyinin qeyd olunması bizim Ordubadiyə yenidən qayıtmağa, ona müstəqillik gözü ilə yenidən baxaraq elmi cəhətdən dərk etməyə meydan açır. Yazıçının altı mindən çox əsəri var. Ulu öndər Heydər Əliyev də Məmməd Səid Ordubadinin yaradıcılığına böyük qiymət verib. Yeni nəsil onu yenidən araşdırmalıdır.

**AMEA-nın vitse-prezidenti,**
**akademik İsa Həbibbəyli**

Müasir Azərbaycan yazıçısı üçün Ordubadi kimdir? İlk növbədə, böyük romançı! Azərbaycan ədəbi dilinin gözəlliklərini, incəliyi, duruluğunu, saflığını əsərlərində əyani şəkildə nümayiş etdirən yazıçı! Ordubadi bu mənada, bir məktəbdir və biz illər keçdikcə, bu məktəbdən öyrənməliyik.

**Professor Vaqif Yusifli**

Müasir Azərbaycan ədəbiyyatında dramaturgiya sahəsində C.Cabbarlının gördüyü işi, poeziyada S.Virğunun gördüyü işi nəsrdə M. S. Ordubadi görmüşdür.